# Vardanyanın müdafiəsi üçün canfəşanlıq edənlərin fiaskosu

## BMT-nin İnsan Hüquqları Şurasının Əsassız Həbslər üzrə İşçi Qrupu həqiqətlərə əsaslanaraq qərar verib



**"Azərbaycan dövlətinə və xalqına qarşı cinayət törətməkdə təqsirləndirilən bir qrup ermənəsilli şəxslər ədalət mühakiməsi qarşısına çıxarılıb. Bir müddətdir ki, Bakıda onların məhkəməsi davam edir və məhkəmə prosesi şəffaf keçirilir. Nə qədər absurd olsa da, həm Ermənistan, həm də xaricdəki erməni lobbisi bu məsələ ilə bağlı dezinformasiya yayır, konkret cinayətlərdə ittiham olunan şəxslərin mühakimədən yayındırılması üçün fərqli yollara əl atırlar".**

Bu fikirləri "Azərbaycan" qəzetinə Milli Məclisin deputatı Sevinc Fətəliyeva deyib. Deputat bildirib ki, həmin dairələrin məqsədi Azərbaycana beynəlxalq təzyiq göstərmək və bu yolla onların azad edilməsinə çalışmaqdır. Bir neçə gün öncə İsveç-Ermənistan parlament dostluq qrupu da erməni cinayətkarların Bakıda keçirilən məhkəməsi ilə bağlı absurd bəyanat qəbul etmişdi. Martın 13-də isə erməni lobbisinin yuvası olan Avropa Parlamenti tərəfindən bu mövzuda "qətnamə" qəbul olunmuşdu. Amma bütün bunlar əbəsdir, çünki bu gün güclü Azərbaycanla təzyiq dili ilə danışmaq mümkün deyil. "Saxta məlumatlara və yalan ittihamlara əsaslanan belə addımlarla reallığı təhrif etmək, Azərbaycanın suverenliyini şübhə altına almaq, erməni separatçılarının və müharibə canilərinin Azərbaycan xalqına qarşı törətdiyi cinayətləri təmizə çıxarmaq üçün göstərilən cəhdlər yolverilməzdir. Bir sıra xarici dairələr, xüsusilə, Ruben Vardanyanın müdafiəsində canfəşanlıq edirlər. Yəqin ki, bu da səbəbsiz deyil, çünki onlar bu yolla milyarder Vardanyanın maliyyəsindən pay qoparmağı özlərinə fürsət bilirlər. Lakin belələrinin beynəlxalq ictimaiyyətdə dəstək almaq cəhdləri fiaskoya uğrayır. Bunu BMT-nin İnsan Hüquqları Şurasının Əsassız Həbslər üzrə İşçi Qrupunun Ruben Vardanyan işi ilə bağlı Ermənistan tərəfinin iddialarını rədd etməsi də təsdiqləyir. Qurum bununla bağlı martın 13-də öz rəyini dərc edib", - deyə siyasətçi qeyd edib.

S.Fətəliyeva xatırladıb ki, işçi qrup öz rəyində Ermənistan tərəfinin Ruben Vardanyanın ifadə azadlığı və siyasi fəaliyyətinə görə həbs olunduğu barədə iddialarını açıq şəkildə rədd edib. Sözügedən rəydə xüsusilə vurğulanır ki, Ruben Vardanyan Azərbaycan Respublikası tərəfindən bir sıra şəxslərin ölümündə və genişmiqyaslı dağıntılar törədilməsində, terrorçuluğun maliyyələşdirilməsində, qeyri-qanuni silahlı birləşmələr yaradılmasında və digər cinayətlərdə ittiham olunur və məhz bu ittihamlar əsasında həbs olunub. Bununla yanaşı, onun öz haqlarını müdafiə etməsi və bu çərçivədə bəyanatlar verməsi səbəbindən həbs olunduğu barədə Ermənistan tərəfinin iddiaları əsassız sayılıb. İşçi qrupun rəyində qeyd olunub ki, ifadə və birləşmək azadlıqları mütləq hüquqlar deyil və onlar xüsusilə milli təhlükəsizlik və ictimai asayişlə bağlı səbəblərə görə məhdudiyyətlərə məruz qala bilər. Rəyə əsasən, R.Vardanyana qarşı ittihamların onun hərəkətlərinin milli təhlükəsizliyə təhdid törətdiyi qənaətinə gəlməyə imkan verir.

Deputat bildirib ki, bütövlükdə, beynəlxalq hüquqa uyğun olaraq ərazi bütövlüyünü və suverenliyini bərpa etmiş Azərbaycanın ağır cinayətlər, o cümlədən, separatizm cinayətləri, sülh və insanlıq əleyhinə, müharibə cinayətləri, Azərbaycan dövlətinə və onun vətəndaşlarına qarşı terror aktları törətmiş şəxsləri təqib etməyə tam qanuni hüququ var. Ən əsası budur ki, müharibə canilərinin cəzasız qaldığı dövr artıq başa çatıb.

***Ə.QARDAŞXANOVA,***
***"Azərbaycan"***

Azərbaycan.- 2025.-16 mart (№58).- S.8.